

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

3 iyul 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 24 (3787)

# Bakıda əməkdaşlıq bəyanatı

**Prezident İlham Əliyev:**
*"Bu gün qaz ixracımızın yarısı Avropa İttifaqının üzv dövlətlərinə gedir və bütövlükdə Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır."*

**Prezident Ursula Fon der Lyayen:**
*"Biz 'Qlobal Qapılar' Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda nəqliyyata, enerjiyə və rəqəmsal keçidlərə 200 milyon avroya qədər qrant şəklində sərmayə yatıracağıq."*



## Azərbaycan və Avropa İttifaqı arasında əlaqələr genişlənir

İyulun 1-də Azərbaycan Prezidenti İlham Əliyev Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə təkbətək və geniş tərkibdə görüş keçirib. Danışıqlardan sonra liderlər mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev bildirib ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır və ölkənin xarici ticarət dövriyyəsinin 40 faizdən çoxu məhz Aİ üzvlərinin payına düşür. Onun sözlərinə görə, Cənubi Qafqaz üzrə Avropa İttifaqının ticarət dövriyyəsinin təxminən 70 faizi də Azərbaycanın payına düşür.

Dövlət başçısı enerji sahəsində əməkdaşlığın son illər əhəmiyyətli dərəcədə genişləndiyini vurğulayaraq qeyd edib ki, Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalandıqdan sonra Azərbaycanın Aİ ölkələrinə təbii qaz ixracı təxminən 65 faiz artıb. Hazırda ixrac olunan qazın yarısı Avropa İttifaqına göndərilir və Azərbaycan qazı artıq qurumun 10 üzv dövlətinə çatdırılır.

Enerji təhlükəsizliyinin bu gün milli təhlükəsizliyin əsas tərkib hissəsi olduğunu bildirən Prezident İlham Əliyev Azərbaycanın siyasi səyləri, diplomatik fəaliyyəti və infrastruktur layihələrinə yatırdığı böyük investisiyalar nəticəsində 3500 kilometrlik Cənub Qaz Dəhlizi Avropanın enerji təminatında mühüm rol oynadığını deyib. Dövlət başçısı nəqliyyat bağlantılarının da müzakirələrin əsas mövzularından biri olduğunu diqqətə çatdırıb.

Bərpaolunan enerji sahəsində də böyük potensialın formalaşdığını deyən Prezident qeyd edib ki, bu istiqamətdə Avropa İttifaqı ilə strateji tərəfdaşlığın daha da inkişaf etdirilməsi nəzərdə tutulur.

Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə də toxunan dövlət başçısı Azərbaycanın Ermənistana tranzit yüklərlə bağlı məhdudiyyətləri aradan qaldırdığını, həmçinin benzin və dizel yanacağı tədarükünə başladığını, bu addımların uzunmüddətli sülhün möhkəmlənməsinə xidmət etdiyini vurğulayıb.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen isə Avropa İttifaqının Cənubi Qafqazda nəqliyyat, enerji və rəqəmsal bağlantı layihələrinə 200 milyon avroya qədər qrant ayıracağını açıqlayıb. Qonaq həmçinin regionda sülhün möhkəmləndirilməsi məqsədilə 20 milyon avroluq yeni proqramın həyata keçiriləcəyini bildirib. Proqram çərçivəsində minatəmizləmə, səhiyyə, kənd yerlərinin inkişafı və kiçik sahibkarlığın dəstəklənməsi nəzərdə tutulur.

# Daxili işlər orqanlarının şəxsi heyətinə



**Əziz həmkarlar!**

**Azərbaycan polisinin yaranmasının 108-ci ildönümü münasibətilə sizi təbrik edir, ən xoş diləklərimi çatdırıram.**

**Ötən müddətdə şərəfli bir inkişaf yolu keçmiş və ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə milli maraqların qorunmasında, qanunçuluğun möhkəmləndirilməsində, asayişin və təhlükəsizliyin təmin edilməsində mühüm xidmətlər göstərmiş polis dövlətin etibarlı dayaqlarından biri olaraq formalaşmışdır.**

**2003-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyətin bütün istiqamətləri üzrə davamlı surətdə yenilənmiş, təkmilləşmiş, özünü müasir təhlükəsizlik çağırışlarına adekvat cavab verməyə qadir, peşəkar insan resurslarına, qabaqcıl texnologiyalara və güclü maddi-texniki bazaya malik hüquq mühafizə institutu kimi təsdiqləmişdir. Cinayətkarlığa, onun transmilli mütəşəkkil formalarına, kibertəhdidlərə, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə və digər təhlükəli əməllərə qarşı mübarizədə üzərinə düşən vəzifələri bu gün də məsuliyyətlə yerinə yetirir, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin olunmasına, qanunçuluğun möhkəmləndirilməsinə, bərpa və quruculuq proseslərinə layiqli töhfələr verir.**

**Əminəm ki, andına həmişə sadiq qalan əməkdaşlarımız bundan sonra da peşəkarlıq, prinsipiallıq və yüksək məsuliyyət nümayiş etdirərək sabitliyin və ictimai təhlükəsizliyin təminatçısı kimi dövlətin və xalqın yüksək etimadını doğruldacaqdır.**

**Peşə bayramı münasibətilə bütün şəxsi heyətə, veteranlarımıza, xidməti vəzifələri yerinə yetirərkən sağlamlığını itirmiş əməkdaşlarımıza və şəhidlərimizin ailə üzvlərinə möhkəm can sağlığı, xidmətdə yeni-yeni nailiyyətlər və uğurlar arzulayıram!**

**Bayramınız mübarək!**

**Vilayət Eyvazov**
***Azərbaycan Respublikasının daxili işlər naziri***
***general-polkovnik***

## Qardaşlıq həmrəyliyi

### Şuşa Bəyannaməsinin əhəmiyyəti bir daha vurğulanıb

Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunulub, ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası sahədə uğurlu inkişafı qeyd edilib, dünyada Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsinin olmadığı bildirilib və bu, birgə sərvətimiz kimi qiymətləndirilib.

## Strateji əməkdaşlıq diqqət mərkəzində

### İkitərəfli münasibətlər müzakirə olunub

Prezident İlham Əliyevlə türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov arasında telefon danışığı olub. Telefon danışığında mədəniyyət, elm, təhsil və idman sahələrində mövcud olan ənənəvi və səmərəli əməkdaşlıq münasibətlərinin əhəmiyyəti vurğulanıb. Tərəflər bu istiqamətlərdə əlaqələrin bundan sonra da uğurla davam etdirilməsinin vacibliyini qeyd ediblər.

## Rəqəmsal inkişaf prioritetdir

### Şura hədəfləri müəyyənləşdirib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya sahəsində qarşıdakı üç il üçün prioritet istiqamətlər müzakirə olunub.

İclasda, həmçinin 2026–2028-ci illər üçün Fəaliyyət Planının icrası, rəqəmsal dövlət xidmətlərinin genişləndirilməsi, süni intellekt həllərinin tətbiqi və kibertəhlükəsizlik sahələrində görülən işlər barədə məlumat verilib.

## Xalq etimadı

### Vətəndaşlar Prezidentə inanır

Medianın İnkişafı Agentliyinin keçirdiyi sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyev respondentlərin etimad səviyyəsi ümumilikdə 87.7 faiz təşkil edir. Bu göstərici hər 10 nəfərdən təxminən 9-nun Prezidentə etimad etdiyini təsdiqləyir. Rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 93.6 faizi ölkə başçısının fəaliyyətini müsbət qiymətləndirir. Prezident seçkiləri növbəti bazar günü keçirilsə, rəyi soruşulanların böyük əksəriyyəti – 91,5 faizi seçkilərdə Prezident İlham Əliyevə səs verərdi.

Dövlətə sədaqət, xalqa xidmət andı
2



108 il sabitliyin keşiyində
3



Dünyada Polis Günü necə qeyd olunur?
4



Növbəti beynəlxalq uğur
4



# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Lerikdə qəbul, Lənkəranda isə sıra baxışı olacaq




Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 7-də Lerik rayonunda növbəti vətəndaş qəbulu və Lənkəranda polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Lerik Rayon Polis Şöbəsinin inzibati binasında baş tutacaq qəbulda Lerik, Lənkəran, Astara, Masallı və Yardımlı rayonlarının sakinləri iştirak edə bilərlər.

Qəbula yazılmaq istəyən vətəndaşlar Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı 06.07.2026-cı il tarixinədək yaşadıqları ərazinin polis orqanına, habelə Nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı iyulun 7-də saat 11:00-da Lənkəran Olimpiya İdman Kompleksində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

# Respublika Xəbərləri

### Karantin müddəti uzadıldı

Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb. Nazirlər Kabinetinin qərarına əsasən, xüsusi karantin rejimi 2026-cı il oktyabrın 1-i saat 06:00-dək qüvvədə olacaq.

### Qarabağa növbəti köç

Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə növbəti köç həyata keçirilib. Bu mərhələdə ümumilikdə 58 ailə, 237 nəfər Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Cəbrayıl və Şuşanın müxtəlif yaşayış məntəqələrinə köçürülüb. Sakinlərə yeni evlərinin açarları təqdim olunub.

### Türk Dünyası Həftəsi keçirilib

Bakıda Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə həsr olunmuş "Türk Dünyası Həftəsi"nin açılış mərasimi keçirilib. Tədbir çərçivəsində türk dünyasının əməkdaşlığı, türk dillərinin inkişafı və Birinci Türkoloji Qurultayın irsi ilə bağlı beynəlxalq elmi-mədəni tədbirlər təşkil olunub. Həftədə 20 ölkədən 215 nümayəndə iştirak edib.

### Məktəblərdə telefon məhdudiyyəti

Elm və Təhsil Nazirliyi məktəblərdə mobil və elektron cihazlardan istifadəyə dair yeni qaydaları təsdiqləyib. Qaydalara əsasən, dərs zamanı mobil telefon, planşet və digər elektron cihazlardan istifadə qadağandır. Cihazlar dərs bitənədək xüsusi saxlama yerlərində saxlanılacaq, onlardan yalnız müəllimin icazəsi ilə tədris məqsədilə və ya fövqəladə hallarda istifadə ediləcək.

### Naxçıvanda yeni nağdsız ödəniş

Naxçıvanda ictimai nəqliyyatda nağdsız ödəniş sisteminin tətbiqinə başlanılıb. Yeni sistem sərnişinlərə gediş haqlarını bank və nəqliyyat kartları ilə ödəməyə imkan verəcək. Layihə çərçivəsində nəqliyyat kartlarının satışı və balansın artırılması ilkin mərhələdə poçt şöbələrində həyata keçiriləcək.

### Minalar zərərsizləşdirilir

İşğaldan azad edilmiş ərazilərdə keçən həftə aparılan minatəmizləmə əməliyyatları zamanı 37 tank əleyhinə mina, 36 piyada əleyhinə mina və 329 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Hesabat dövründə ümumilikdə 1696,11 hektar ərazi minalardan və partlayıcı qalıqlardan təmizlənib.

# Dövlətə sədaqət, xalqa xidmət andı

## Polis Günü münasibətilə təntənəli mərasim keçirilib














Azərbaycan Polisinin yaranmasının 108-ci ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və Nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin abidə kompleksi önünə əklil qoyublar.

Ziyarət zamanı görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi ehtiramla yad edilib.

Respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı da ziyarət olunub.




### Polis Akademiyasında təntənəli tədbir

Daxili İşlər Nazirliyinin Polis Akademiyasında “Polis Günü”nə və 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin, habelə respublikamızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış və xidməti vəzifələri yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi yad olunub.

Peşə bayramı münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov ötən 108 ildə polisin keçdiyi şərəfli və zəngin xidmət yolundan, yaratdığı ənənələrdən, xüsusən ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, milli ruhlu vətənpərvər kadrlarla möhkəmlənməsi sahəsində görülən mühüm işlərdən danışıb.

### Polisin xidməti fəaliyyəti vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulub

Nazir Azərbaycan Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyində güclü və müasir maddi-texniki baza yaradıldığını, müasir dövrün çağırışlarından irəli gələn struktur dəyişiklikləri aparıldığını, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi, peşə hazırlığının artırılması sahəsində sistemli tədbirlərin həyata keçirildiyini və əməliyyat-xidməti fəaliyyətin vətəndaş məmnunluğunun təmini prinsipləri üzərində qurulması ilə bağlı həyata keçirilmiş tədbirləri vurğulayıb.

Vətəndaşların ərizə və şikayətlərinin obyektiv və həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin səmərəli icrasının vacibliyinə toxunan nazir, xidməti vəzifələrin dəqiq və qüsursuz yerinə yetirilməsində dürüstlük, prinsipiallıq və məsuliyyət kimi keyfiyyətlərin böyük önəm kəsb etdiyini bildirib.

Cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında polis orqanlarının hər bir şəxsin qanuni mənafeyini, hüquq və azadlığının müdafiəsini yüksək səviyyədə təmin etdiyi qeyd olunub.

İşğaldan azad edilmiş ərazilərdə “Böyük Qayıdış”ın sürətlənməsi üçün polis orqanlarının, o cümlədən Daxili Qoşunların fəaliyyətinin mövcud vəziyyətə uyğunlaşdırıldığı, asayişin və təhlükəsizliyin etibarlı təmin edildiyi, xidmətin böyük əzm və peşəkarlıqla davam etdirildiyi vurğulanıb.

Cinayətlərin açılmasının yüksək səviyyədə saxlanılmasının, hüquqpozmaların profilaktikasının daha da yaxşılaşdırılmasının, bütövlükdə xalqa xidmət funksiyalarının daha təkmil icrası üçün əlavə tədbirlərin həyata keçirilməsinin başlıca vəzifələr olduğu şəxsi heyətin diqqətinə çatdırılıb.

Xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, qeyri-hökumət təşkilatlarına və media nümayəndələrinə təşəkkür ifadə olunub.

General-polkovnik V.Eyvazov təntənəli mərasimin iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, öz andına həmişə sadiq olan daxili işlər orqanları bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcək, bu yolda qüvvə və bacarığını əsirgəməyəcək.

Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini Vətənə, dövlətə, xalqa sevgi və xidmət ruhunda yetişdirən Polis Akademiyasının qazanılan uğurlardakı rolunu xüsusi vurğulayan daxili işlər naziri məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib, eləcə də bu təhsil müəssisəsini baş leytenant rütbəsi ilə bitirmiş məzunlara fərqlənmə diplomlarını təqdim edib.

Təntənəli tədbir şəxsi heyətin mətin addımlarla tribuna qarşısından keçidi ilə yekunlaşıb.

# 108 il sabitliyin keşiyində

## Azərbaycan Polisinin tarixi dövlətə və xalqa sədaqətin salnaməsidir

Azərbaycan Polisi yaranmasının 108-ci ilini böyük uğurlarla başa vurur. Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni dövrdə formalaşmağa başlayan polis ötən əsrdən bu günə qədər dövlətçiliyin, qanunun aliliyinin və ictimai təhlükəsizliyin qorunmasında tarixi missiya yerinə yetirib. Bu özünü ilk növbədə polislə təməli qoyulan milli hüquq - mühafizə sisteminin dövlət maraqlarının müdafiəsi və ictimai asayişin təmin olunması istiqamətində dövlətçilik ənənəsini yaratmaqla göstərdi. Sonrakı illərdə isə bu ənənə daha da inkişaf etdirildi.






Müstəqilliyin bərpasının ilk illərində Azərbaycan mürəkkəb sınaqlarla üzləşəndə daxili işlər orqanlarının üzərinə düşən taleyüklü vəzifələr var idi. Dövlətçiliyin qorunması, ictimai təhlükəsizliyin təmin olunması və ərazi bütövlüyünün müdafiəsi uğrunda mübarizədə polis əməkdaşları ön sıralarda yer aldı. Birinci Qarabağ müharibəsində polis əməkdaşları yeganə silahlı hüquq - mühafizə orqanı kimi döyüşlərin ən ağır istiqamətlərində qəhrəmanlıq göstərdilər.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları Silahlı Qüvvələrin tərkibində ilk gündən döyüş əməliyyatlarına qoşuldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu ön cəbhənin müxtəlif istiqamətlərində yüksək peşəkarlıq, döyüş hazırlığı və vətənpərvərlik nümayiş etdirdi. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçuları azadlıq uğrunda aparılan döyüşlərdə qarşıya qoyulan tapşırıqları canı və qanı bahasına yerinə yetirdilər. Daxili işlər orqanlarının qəhrəmanlıq salnaməsi 2023-cü ilin sentyabrında keçirilən lokal antiterror tədbirləri zamanı daha bir şərəfli səhifə ilə zənginləşdi.

2020-ci ilin sentyabrında ölkədə hərbi vəziyyət elan edilərkən komendant saatının tətbiqi ilə bağlı bütün tədbirlər yüksək peşəkarlıqla icra olundu. Daxili işlər orqanları yalnız xüsusi rejim tətbiq edilən şəhər və rayonlarda deyil, ölkənin bütün ərazisində ictimai təhlükəsizliyin qorunmasını təmin edirdi. Müharibə dövründə arxa cəbhədə sabitliyin saxlanılması, vətəndaşların təhlükəsizliyinin qorunması və dövlət əhəmiyyətli obyektlərin mühafizəsi böyük məsuliyyət tələb edirdi. Şəxsi heyət bütün tapşırıqları uğurla yerinə yetirdi. İşğaldan azad edilmiş ərazilərdə yaradılan müvəqqəti komendantlıqların yükü də Daxili İşlər Nazirliyinin əməkdaşlarının çiynində idi.

Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra daxili işlər orqanlarının qarşısında yeni və mühüm vəzifələr müəyyənləşdi. İşğaldan azad olunmuş ərazilərdə təhlükəsizliyin təmin edilməsi və ictimai asayişin qorunması, "Böyük Qayıdış" prosesinin etibarlı təhlükəsizliyini təmin etmək bu fəaliyyətin əsas istiqamətləri idi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərinin etibarlı təhlükəsizlik mühiti həm də daxili işlər orqanlarının fədakar xidməti sayəsində formalaşıb. Əməkdaşlar mina təhlükəsi, təxribat riskləri və digər çağırışlar fonunda fasiləsiz xidmət apararaq bölgədə sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verirlər.

Azərbaycanın təhlükəsizlik sahəsində qazandığı uğurlar beynəlxalq hesabatlarda da öz əksini tapır. Ölkəmizin dünyanın ən təhlükəsiz dövlətləri sırasında qərarlaşması daxili sabitliyin qorunması istiqamətində həyata keçirilən ardıcıl siyasətin nəticəsidir. Dünyanın müxtəlif bölgələrində terror təhlükəsinin və qeyri sabitliyin artdığı bir dövrdə Azərbaycanın təhlükəsiz ölkə kimi mövqeyini daha da gücləndirməsi peşəkar fəaliyyətin göstəricisidir.

İctimai asayişin qorunması, cinayətkarlığa qarşı mübarizə, müasir texnologiyaların tətbiqi və vətəndaş məmnunluğunun artırılması daxili işlər orqanlarının fəaliyyətində əsas istiqamətlər kimi müəyyənləşdirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar bu sistemin maddi texniki bazasını əhəmiyyətli dərəcədə gücləndirib, şəxsi heyətin sosial müdafiəsini daha da yaxşılaşdırıb. Bu da əməkdaşların peşəkarlığının və xidmət keyfiyyətinin yüksəlməsinə mühüm təsir göstərib.

Daxili İşlər Nazirliyinin şəxsi heyəti ön cəbhədə olduğu kimi, arxa cəbhədə də üzərinə düşən vəzifələri yüksək məsuliyyət hissi ilə yerinə yetirir. İctimai təhlükəsizliyin qorunması, cinayətkarlığa qarşı qətiyyətli mübarizə, kütləvi tədbirlərin təhlükəsizliyinin təmin olunması, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi onların gündəlik fəaliyyətinin ayrılmaz hissəsidir. Cəmiyyətin polisə olan etimadı da məhz bu məsuliyyətli xidmətin nəticəsində ildən ilə möhkəmlənir.

Daxili işlər orqanlarının müasir inkişafı Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə bağlıdır. Son illər ərzində xidmət infrastrukturunun yenilənməsi, yeni inzibati binaların, hərbi hissələrin və sosial obyektlərin istifadəyə verilməsi, maddi texniki təminatın gücləndirilməsi, əməkdaşların sosial rifahının yaxşılaşdırılması bu siyasətin əsas istiqamətlərini təşkil edir.

Bu gün Azərbaycan polisinin regionun ən güclü hüquq - mühafizə qurumlarından biri olduğunu ölkədə hökm sürən əmin-amanlıq, sabitlik təsdiq edir. Ötən 108 ildə yazılmış qəhrəmanlıqlarla zəngin tarix daxili işlər orqanlarının şəxsi heyətinin bundan sonra da üzərinə düşən vəzifələri yüksək məsuliyyət, qətiyyət və sədaqətlə yerinə yetirəcəyinə etibarlı zəmanət verir.

*Rəşad Mehtiyev*

# Sinəsi sipər olanlar

## Onların xidməti yaddaşlarda anda sədaqət örnəyi kimi daim yaşayacaq



Polis kapitanı Məmmədov Eldəniz
Polis serjantı Ağayev Mahir
Polis serjantı Heydərov Mirəli

Hər il iyulun 2-də qeyd olunan Polis Gününün sıradan bir peşə bayramı olmadığını Azərbaycan polisinin gündəlik xidməti sübut edir. Çünki polis əməkdaşı hər gün evdən çıxarkən onu hansı təhlükənin gözlədiyini bilmir. Qarşısına silahlı cinayətkar da çıxa bilər, alovlar içində qalan bina da, köməyə ehtiyacı olan uşaq da. Belə anlarda polis tərəddüd etmədən özgə həyatını xilas etmək naminə öz həyatını riskə atır.

Axı qəhrəmanlıq yalnız döyüş meydanlarında yazılmır. Üç il əvvəl Babək rayonu Uzunoba gölündə baş verən hadisə bunun ən təsirli nümunələrindən biridir. Xidmətdənkənar vaxtda ailəsi ilə istirahətdə olan polis baş serjantı Vüsal Quliyev göldə boğulan 13 yaşlı uşağın köməyinə çataraq onu ölümün əlindən almışdı. Daha sonra uşağın anasını xilas etmək üçün yenidən suya atılmış, lakin bu dəfə geri dönməmişdi. İnsan həyatını xilas etmək uğrunda canından keçən Vüsal Quliyev ölümündən sonra Prezidentin Sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif edildi. Bu mükafat onun fədakarlığının dövlət tərəfindən yüksək qiymətləndirildiyini təsdiq etdi, həm də vətəndaşların qəlbində polisin fədakarlığına əbədi abidə qoydu.

Eyni fədakarlığı 2021-ci ildə gənc polis nəfəri İbrahim Əlosmanov da nümayiş etdirmişdi. Xəzər rayonundakı çimərlikdə dənizdə boğulan şəxsi görən 21 yaşlı Əlahiddə Çevik Polis Alayının əməkdaşı bir an belə tərəddüd etmədən özünü dalğaların qoynuna atmışdı. Həmin gün dəniz daha bir qəhrəman polisin adını əbədiyyətə həkk etdi.

Cinayətkarlıqla mübarizə isə bəzən həyatla ölüm arasında gedir. Polis kapitanı Elçin Səfərov 2021-ci ildə Bakıda təhlükəli cinayətkarın saxlanılması zamanı baş verən qumbara partlayışı nəticəsində vəfat etməsi polis peşəsinin böyük fədakarlıq missiyasını göstərirdi.

İki il əvvəl Şüvəlan qəsəbəsində baş verən silahlı insident də Azərbaycan polisinin Vətənə və xidmət andına nə qədər sadiq olduğunu bütün cəmiyyətə nümayiş etdirdi. Cinayətkarın silahlı müqaviməti zamanı polis kapitanı Eldəniz Məmmədov, polis serjantları Mahir Ağayev və Mirəli Heydərov qanunun aliliyini təmin etmək naminə son nəfəslərinədək mübarizə apardılar.

Şübhəsiz ki, bu adların hər biri bir ailənin ağrısı olsa da, bir övladın fəxri, bütöv bir xalqın isə qürurudur. Çünki onlar öz həyatlarını başqalarının yaşaması naminə qurban verdilər.

Polis Günü ərəfəsində onların hər birini dərin ehtiramla anırıq. Qarabağ uğrunda şəhid olanları da, cinayətkarın qarşısında sipər olanları da, alovun, güllənin üzərinə tərəddüd etmədən gedənləri də. Çünki bu Vətənin təhlükəsizliyi onların və onlar kimi minlərlə fədakar insanın sədaqəti, cəsarəti və xidmətə bağlılığı üzərində dayanır.

# Su polisi əməliyyat keçirib

## Dəniz sahillərində narkotiklərə qarşı mübarizə




Daxili İşlər Nazirliyi Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. İdarəyə xidməti ərazi olan Suraxanı rayonu, Hövsan qəsəbəsi, Qum adası adlanan ərazidə narkotiklərin satışının təşkil edildiyi barədə əməliyyat məlumatı daxil olub. Həyata keçirilən tədbirlərlə qeyd edilən əməli törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunan V.Tahirov saxlanıb. Həmin şəxsdən külli miqdarda narkotik vasitə olan marixuana aşkarlanıb.

Faktla bağlı Su Nəqliyyatında Polis İdarəsində araşdırmalar davam etdirilir.

Qeyd edək ki, su polisləri tərəfindən Xəzər dənizi və xidməti ərazi olan digər su hövzələrində qanunazidd halların qarşısının alınması məqsədilə nəzarət tədbirləri sahil boyu davam etdirilir. İdarə əməkdaşları tərəfindən Xəzər dənizinin dibi ilə çəkilən dəmir boru kəmərlərinin və müxtəlif təyinatlı naqillərin kəsilib satışını təşkil edən şəxslərə qarşı da mübarizə mütəmadi olaraq aparılır. Vətəndaşlardan Xəzər dənizində və su hövzələrində hər hansı bir qanun pozuntusu ilə rastlaşdıqları halda Su Nəqliyyatında Polis İdarəsinin 012-433-38-12 və 012-433-38-02 nömrələrinə zəng edərək məlumat vermələri xahiş olunur.

# Qanundan yan keçə bilmədilər

## Polis avtoxuliqanları saxlayıb




Polis əməkdaşları tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin olunması, xüsusilə motosiklet və digər ikitəkərli nəqliyyat vasitələrinin sürücüləri arasında qanunvericiliyin tələblərinə əməl olunmasına nəzarətin gücləndirilməsi istiqamətində profilaktik və nəzarət tədbirləri davam etdirilir.

Abşeron Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsi tərəfindən 25 iyun tarixində keçirilən növbəti tədbir zamanı sakinlərin rahatlığını pozan, yüksək səs effekti yaradan və sürücülük hüququ olmayan 122 motoxuliqan saxlanılıb.

Tədbirlər zamanı nəqliyyat vasitələrinin konstruksiyasına qanunsuz müdaxilə edən, əlavə işıq və səsboğucu qurğular quraşdıran 30, yükdaşıma qaydalarını pozan 11, müəyyən edilmiş keçidlərdə piyadalara yol verməyən 18 və sərxoş vəziyyətdə avtomobil idarə edən 6 sürücü barəsində də inzibati protokollar tərtib olunub.

Abşeron rayonunda qeyd olunan istiqamətlər üzrə profilaktik tədbirlər davam etdirilir.

# Narkotacirlərə qarşı növbəti əməliyyat

## Psixotrop tərkibli preparatlar qanunsuz dövriyyədən çıxarılıb

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışının qarşısının alınması istiqamətində əməliyyat tədbirləri davam etdirilir. Paytaxt və bölgələrdə keçirilən növbəti əməliyyat zamanı 37 yaşlı M.Məmmədov, 35 yaşlı K.Məmmədov, 40 yaşlı X.Qardaşova, 43 yaşlı R.Nəsirov, 42 yaşlı F.Nəzərov, 26 yaşlı O.Abbasov, 27 yaşlı E.Məmmədov, 43 yaşlı A.Məmmədov və 36 yaşlı M.Həsənov saxlanılıblar. Həmin şəxslərdən 46 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana, heroin, tiryək, həşiş, eləcə də yüksək təsirli narkotik vasitə olan kokain, 2087 ədəd psixotrop tərkibli metadon, ekstazi həbi, elektron tərəzilər və narkotiklərin satışından əldə edilən 55270 manat pul vəsaiti aşkarlanıb. Araşdırmalarla müəyyən olunub ki, bu şəxslər xarici narkotacirlərin tapşırıqları əsasında ölkə ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil ediblər.

Faktlarla bağlı cinayət işləri başlanılıb. Saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Araşdırmalar davam etdirilir.

# Dünyada Polis Günü necə qeyd olunur?

## Eyni peşə, fərqli ənənələr

**Bir ölkədə polis bayramı qışın şaxtalı günündə qeyd olunur, başqa bir ölkədə isə yay aylarında. Bəzi ölkələrdə polis əməkdaşları həmin gün şəhid həmkarlarının xatirəsini yad edir, digər ölkələrdə isə uşaqlar və ailələr üçün açıq qapı günləri, maarifləndirici tədbirlər təşkil olunur. Dünyanın xəritəsinə nəzər saldıqda məlum olur ki, "Polis Günü" adlı vahid beynəlxalq tarix yoxdur. Hər ölkə polisinin tarixini və qəhrəmanlıq ənənələrini özünəməxsus bir tarixdə bayram edir.**







### ►Ən gənc polis bayramı

Çin uzun müddət polis üçün ayrıca peşə bayramı olmayan ölkələrdən biri idi. Lakin 2021-ci ildən etibarən yanvarın 10-u rəsmi Polis Günü elan edildi. Tarixin seçilməsi də təsadüfi deyil. Çində polisə təcili müraciət nömrəsi "110" olduğundan, ilin birinci ayının onuncu günü - 1/10 bu xidmətin rəmzinə çevrilib.

Hər il həmin gün polis idarələri vətəndaşlar üçün qapılarını açır və insanlar kriminalistika laboratoriyaları ilə tanış olurlar.

### ►Bir həftə polisə həsr olunur

ABŞ-da polisə ehtiram təkcə bir günlə məhdudlaşmır. Burada hər il may ayında "Milli Polis Həftəsi" keçirilir. Vaşinqtonda minlərlə polis əməkdaşı toplaşır, xidməti vəzifəsini yerinə yetirərkən həlak olmuş həmkarlarının adları memorial lövhələr üzərində səsləndirilir. Şəhərdə bir həftə ərzində anım mərasimləri, yürüşlər və polis ailələri ilə görüşlər təşkil edilir. Bəzi binalar və abidələr polisə ehtiram əlaməti olaraq mavi işıqlarla işıqlandırılır.

### ►Xatirəyə çevrilən tarix

Dünyanın ən təsirli polis anım günlərindən biri Hindistanda keçirilir. Hər il oktyabrın 21-də qeyd olunan "Polis Xatirə Günü" 1959-cu ildə vəzifə borcunu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsinə həsr olunub. Həmin gün ölkənin hər yerində anım mərasimləri keçirilir, şəhid polis əməkdaşlarının adları bir-bir oxunur və onların ailələrinə ehtiram göstərilir.

Bolqarıstanda Polis Günü noyabrın 8-də qeyd olunur. Maraqlıdır ki, bu tarix xristian dünyasında müqəddəs sayılan Baş mələk Mixailin gününə təsadüf edir. Bolqarlar onu polis və təhlükəsizlik qüvvələrinin himayədarı hesab edirlər. Bu səbəbdən ölkədə polis bayramı təkcə peşə tədbiri deyil, həm də mənəvi məna daşıyan gün kimi qəbul edilir.

### ►Polis Günü müstəqillik tarixi ilə bağlı olan ölkə

Sloveniyada Polis Günü iyunun 27-də qeyd olunur. Bu tarix 1991-ci ildə ölkənin müstəqilliyi uğrunda baş verən hadisələrlə bağlıdır. Həmin dövrdə polis qüvvələri ölkənin suverenliyinin qorunmasında mühüm rol oynayıb və bu tarix sonradan peşə bayramına çevrilib.

### ►Bir polis günü, dörd fərqli tarix

Polşanın polis tarixində maraqlı bir fakt var. Ölkədə son yüz ildə Polis Gününün tarixi dörd dəfə dəyişib. Müxtəlif siyasi dövrlər, müharibələr və idarəetmə sistemləri səbəbindən bayram müxtəlif illərdə müxtəlif günlərdə qeyd olunub. Hazırda isə Polşa polisi iyulun 24-nü öz peşə bayramı kimi qeyd edir. Həmin gün dövlət təltifləri təqdim olunur, xidmətdə fərqlənən əməkdaşlar mükafatlandırılır və şəhid polis əməkdaşlarının xatirəsi yad edilir.

### ►Türk polis təşkilatı - 181 illik tarix

Türkiyədə isə Polis Günü hər il aprelin 10-da qeyd olunur. Bu tarix 1845-ci ildə Osmanlı İmperiyasında ilk müasir polis təşkilatının yaradılması ilə bağlıdır. Həmin günlə başlayan "Polis Həftəsi" çərçivəsində ölkənin müxtəlif şəhərlərində rəsmi mərasimlər, şəhid polis əməkdaşlarının anım tədbirləri, ictimai aksiyalar və vətəndaşlarla görüşlər keçirilir. Türk polis təşkilatı 181 ildən artıq tarixi ilə ölkənin ən köklü dövlət institutlarından biri hesab olunur.

Tarixlər fərqli, ənənələr isə müxtəlifdir. Ancaq dünyanın harasında qeyd olunmasından asılı olmayaraq, polis günlərinin bir ümumi cəhəti var - bu günlər cəmiyyətin təhlükəsizliyi naminə xidmət edən insanlara təşəkkür etmək, xidməti vəzifəsini yerinə yetirərkən həyatını itirənlərin xatirəsini ehtiramla yad etmək və polis peşəsinin məsuliyyətini bir daha xatırlatmaq üçün qeyd olunur.

Çünki fərqli bayram təqvimlərinə və ənənələrə baxmayaraq, dünyanın hər yerində polisin missiyası dəyişmir – cəmiyyətin təhlükəsizliyini təmin etmək, qanunun keşiyində dayanmaq və insanlara xidmət etmək.

*Aytən Tahirova*

# Növbəti beynəlxalq uğur

## Yol polisimiz MDB birincisi oldu



Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin Dövlət Avtomobil Müfəttişliyinin yaradılmasının 90 illiyi münasibətilə Moskva şəhərində keçirilən "ən yaxşı yol patrul xidməti əməkdaşı" adlı peşəkar ustalıq müsabiqəsində Azərbaycan polisi uğura imza atıb. Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin baş inspektoru polis kapitanı Emil İbrahimov müsabiqəyə dəvət olunmuş MDB ölkələrinin yol patrul xidməti əməkdaşları arasında birinci yerə layiq görülüb. Müsabiqədə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Azərbaycandan olan yol polisi əməkdaşları iştirak ediblər.

Yarış iştirakçılarının peşə hazırlığı bir neçə istiqamət üzrə qiymətləndirilib. Sınaqlar yol hərəkəti qaydaları üzrə test imtahanı, yol hərəkətinin tənzimlənməsi və nizamlanması, yol nəqliyyat hadisələri zamanı ilkin tibbi yardım bacarıqları, atəş hazırlığı, silahla davranış və təhlükəsizlik qaydaları, praktiki atıcılıq və fiziki hazırlıq mərhələlərini əhatə edib.

Bütün mərhələlər üzrə yüksək nəticə göstərən polis kapitanı Emil İbrahimov birinci yeri qazanaraq yarışın qalibi olub.

Qeyd edək ki, bu, Emil İbrahimovun nüfuzlu müsabiqədə ilk uğuru deyil. O, Dövlət Avtomobil Müfəttişliyinin yaradılmasının 80 illiyi münasibətilə keçirilən beynəlxalq yarışda da MDB ölkələrinin yol patrul xidməti əməkdaşları arasında birinci yerə layiq görülmüşdü. Qaliblərin təltifetmə mərasimində Rusiya Daxili İşlər Nazirliyinin rəhbər şəxsləri iştirak edib.

# Polis Günü ilə bağlı futzal turniri

## Gərgin mübarizədə qaliblər müəyyənləşib



2 İyul – Azərbaycan Polisi Günü münasibətilə paytaxtın polis orqanları arasında futzal üzrə çempionat keçirilib. DİN-in İdman Cəmiyyətində keçirilən yarışda Bakı şəhər polis orqanlarını təmsil edən 6 komanda çempionluq uğrunda mübarizə aparıb. Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən oyunların yekununda qaliblər müəyyənləşib.

Çempionatın nəticələrinə əsasən Bakı şəhər Baş Polis İdarəsinin komandası I, Diplomatik Nümayəndəlikların Mühafizəsi üzrə Polis Taborunun komandası II, Baş Mühafizə İdarəsinin komandası III yer tutub.

Qalib və mükafatçılar kubok, medal, diplom və hədiyyələrlə təltif olunublar.

# Mikroskop altında aşkarlanan izlər

## Bitki tozları kriminalistikada necə mühüm sübuta çevrilir?



Cinayət yerində qalan sübutlar hər zaman qan ləkəsi, barmaq izi və ya təhlükəsizlik kamerasının görüntüləri olmur. Bəzən insan gözünün seçə bilmədiyi, havada daşınan və yalnız mikroskop altında görünən bitki tozları - polenlər də istintaq üçün mühüm ipucu rolunu oynayır. Kriminalistikanın ən maraqlı və az tanınan sahələrindən biri hesab olunan palinologiya məhz bu izlərin araşdırılması ilə məşğuldur. Araşdırmalarla müəyyən edilib ki, hər bir bitkinin polen quruluşu fərqlidir. Bu səbəbdən müəyyən ərazidə rast gələn polenlər həmin ərazinin özünəməxsus "təbiət pasportu" hesab olunur. Cinayətkar isə çox vaxt fərqinə varmadan bu görünməz izləri özü ilə daşıyır.

### *Mikroskop altında fakta çevrilən zərrəcik*

Kriminalistikada polen ekspertizasının tarixi ötən əsrin ortalarına təsadüf edir. Alimlər müəyyən ediblər ki, bitki tozları paltara, ayaqqabıya, avtomobil təkərlərinə və hətta saçlara yapışaraq uzun müddət qala bilir. Onların hərəkət istiqamətini izləmək isə şəxsin hansı ərazilərdə olduğunu müəyyən etməyə kömək edir.

Bu xüsusiyyət palinologiyanı digər ekspertiza növlərindən fərqləndirir. Çünki cinayətkar hadisə yerindəki izləri silə bilər, lakin paltarına və ya ayaqqabısına yapışmış mikroskopik polenləri tamamilə yox etmək hər zaman mümkün olmur.

### *Geyimdəki toz cinayət yerini göstərdi*

Kriminalistika tarixində geniş rezonans doğuran araşdırmalardan birində zərərçəkmiş şəxsin geyimindən götürülən polen nümunələri istintaqın taleyini dəyişib. Ekspertlər müəyyən ediblər ki, həmin nümunələr yalnız müəyyən bitki örtüyünə malik ərazidə rast gəlinən bitkilərə aiddir. Bu nəticədən sonra istintaqçılar axtarış dairəsini xeyli daraldıblar. Aparılan araşdırmalar nəticəsində hadisənin baş verdiyi yer müəyyən olunub və iş üzrə vacib sübutlar əldə edilib.

Mütəxəssislər həmin hadisəni palinologiyanın imkanlarını nümayiş etdirən ən uğurlu nümunələrdən biri hesab edirlər.

Bitki tozlarının mühüm rol oynadığı digər cinayət işində isə maraqlı ziddiyyət ortaya çıxıb. İlk baxışdan meyitin tapıldığı ərazinin hadisə yeri olduğu düşünülsə də, ekspertiza fərqli mənzərə ortaya qoyub. Qurbanın geyimindən və üzərindəki torpaq nümunələrindən götürülən polenlər ərazidəki bitki örtüyü ilə uyğunluq təşkil etməyib. Sonrakı araşdırmalar göstərib ki, şəxs başqa yerdə qətlə yetirilib, meyit isə sonradan fərqli əraziyə aparılıb. Beləliklə, gözlə görünməyən bitki tozları cinayətkarın hadisənin izlərini gizlətmək cəhdlərini puça çıxarıb və istintaqın düzgün istiqamətdə aparılmasına kömək edib.

### *Təbiətin səssiz şahidləri*

Bu gün dünyanın bir sıra ölkələrində palinologiya ağır cinayətlərin araşdırılmasında istifadə olunur. Xüsusilə meşəlik ərazilərdə, kənd yerlərində və açıq sahələrdə törədilən cinayətlərin istintaqı zamanı bitki tozları mühüm sübut hesab edilir.

Kriminalistlər bildirirlər ki, hər bir insan gün ərzində fərqinə varmadan yüzlərlə polen hissəciyi ilə təmasda olur. Həmin hissəciklər isə lazım gəldikdə onun hərəkət marşrutunu müəyyən etməyə kömək edən vacib izlərə çevrilə bilir.

Müasir kriminalistika bir daha göstərir ki, cinayət yerində əhəmiyyətsiz detal yoxdur. Bəzən ən böyük həqiqətləri məhz insan gözünün görə bilmədiyi ən kiçik izlər danışır. Polenlər isə bəlkə də, həmin hadisələrin səssiz, lakin mühüm şahidlərindən biridir.

*Aytən Tahirova*

# Polis dronları

## Qazaxıstanda polislərə pilotsuz uçuş aparatlarını idarə etmək öyrədilir

Qazaxıstanda Əməliyyat-Kriminalistika Departamentinin bazasında tədris-məşq laboratoriyası açılıb. Burada polis əməkdaşları dronların idarə olunması üzrə kompleks hazırlıq keçirlər.

Təlim bir neçə mərhələdən ibarətdir: nəzəri kurs, xüsusi simulyatorlarda iş və kompüterdə praktiki məşğələlər. Pilotsuz uçuş aparatlarının real xidməti tapşırıqlarda - operativ reaksiya tədbirlərindən axtarış əməliyyatlarınadək tətbiqinə xüsusi diqqət yetirilir.

Pilotsuz uçuş aparatlarından gecə müşahidəsi və aerokəşfiyyat üçün istifadə olunur. Dronlar qaranlıq vaxtlarda və mürəkkəb hava şəraitində insanların axtarışını səmərəli aparmağa imkan verir.

Bundan başqa, dronlar hadisə yerinin havadan operativ şəkildə müşahidəsini təmin edir, istintaq-əməliyyat qrupu gələnədək vəziyyəti qeydə almağa imkan yaradır.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik